# SİVİLİZASİYALARARASI DİALOQ



***Artıq neçə illərdir ki, ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdən biri də uğurla başa çatdı. "Gülüstan" sarayında "Bakı - İslam Mədəniyyətinin Paytaxtı-2009" mədəniyyət ili çərçivəsində İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransı işinə yekun vurdu.***

Tədbirə Şimali Kipr Türk Respublikası, İraq, Liviya, Mavritaniya, Mərakeş, Fələstin, Qatar, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Sudan, Suriya, Tacikistan, Toqo, Əlcəzair, Banqladeş, Qabon, Kamerun, Çad, Yəmən Ərəb Respublikası, Tatarıstan, Başqırdıstan, Xakasiya və digər ölkələrin mədəniyyət nazirləri, İran islam Mədəniyyət və Kommunikasiya Təşkilatının rəhbəri, Oman Respublikası kral ailəsinin üzvü, mədəniyyət naziri, İSESKO, İRSİKA, Avropa Şurası və TÜRKSOY təşkilatlarının baş direktorları, Avstriya, Vatikan və Gürcüstanın mədəniyyət nazirliklərinin nümayəndələri, bir sıra universitet və akademiyaların rəhbərləri, bir çox beynəlxalq təşkilatların Azərbaycanda akkreditə olunmuş nümayəndə və səfirləri, Azərbaycan hökumətinin nümayəndələri qatılmışdı.

Bütövlükdə konfransın işində 45-dən çox dövlətdən 25 nazir, 11 nazir müavini, 18 beynəlxalq təşkilatın nümayəndəsi - 200-dən çox qonaq iştirak edən tədbirdə əvvəlcə Qurani-Kərimdən ayələr oxundu.

Sonra baş nazirin birinci müavini Elçin Əfəndiyev ölkə başçısı İlham Əliyevin konfrans iştirakçılarına təbrik məktubunu oxudu.

Dövlət başçısı məktubunda 2009-cu il üçün Bakının İslam mədəniyyətinin paytaxtı elan edilməsini müxtəlif sivilizasiyaların qovşağında yerləşən ölkəmizin zəngin tarixi və mədəniyyətinə verilən yüksək qiymət kimi dəyərləndirir: "Bu il ərzində gerçəkləşən tədbirlər İslam Konfransı Təşkilatı çərçivəsində mədəni əlaqələrimizin inkişafına layiqli töhfələr vermiş, bir daha Azərbaycanın böyük İslam mədəniyyətinin formalaşmasında tutduğu mövqeyə diqqəti cəlb etmişdir.

Respublikamızda hökm sürən tolerantlıq mühitini biz böyük tarixi nailiyyətimiz kimi dəyərləndirir, bu ənənələri davam etdirərək müxtəlif dinlər, mədəniyyətlər arasında konstruktiv dialoqun qurulması prosesinə daim diqqət yetiririk. Əminəm ki, sizin konfransınız da müxtəlif sivilizasiyaların ortaq mənəvi-mədəni dəyərlərə əsaslanan səmərəli əməkdaşlıq səylərinə köməyini əsirgəməyəcəkdir...

Məktubda konfransın İslam dünyası mədəniyyətinin aktual məsələlərinə dair ətraflı müzakirələr aparılacağına, ölkələrimiz və xalqlarımız arasında qarşılıqlı mədəni əməkdaşlığın yeni inkişaf yollarının müəyyən ediləcəyinə inam ifadə olunur.

Məktubun oxunuşundan sonra çıxış üçün söz İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycriyə verildi. Nitqinə yüksək təşkilatçılığa və qonaqpərvərliyə görə başda Prezident İlham Əliyev olmaqla Azərbaycan xalqına təşəkkürlə başlayan qonaq mədəniyyətlərin qovuşuğunda yerləşən Azərbaycanın sivilizasiyalararası dialoqa böyük töhfələr verdiyini dedi. Ölkəmizin İSESKO ilə əməkdaşlığını yüksək qiymətləndirən Əbdüləziz bin Osman əl-Tuveycri ölkəmizin müdrik rəhbəri ilə daha da böyük uğurlar qazanacağına inam ifadə etdi.

İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət Nazirlərinin V Konfransına sədrlik etmiş Liviyanın mədəniyyət idarəsinin baş komitəsinin rəhbəri Nuri Əl Həmidi çıxışına "İslam mədəniyyəti bəşəriyyət üçün mayakdır" cümləsi ilə başlayaraq konfransa sədrlik etdikləri müddətdə görülən işlərdən danışdı. Natiq İslam mədəniyyətinin inkişafı və təbliği istiqamətində qarşıda görüləcək işlərin çox olduğunu da diqqətə çatdırdı. Sonra İslam ölkələri mədəniyyət nazirlərinə sədrliyin Liviyadan Azərbaycana keçdiyi elan olundu.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev müzakirələrdə İslam irsinin qorunması məsələsinə xüsusi diqqət ayrılmasının vacibliyini bildirərək, ölkəmizdə tarixi irs nümunələrinin qorunması istiqamətində tədbirlərin ən yüksək səviyyədə keçirildiyini vurğuladı: "Bu gün biz İslam mədəniyyəti tarixində və islam xalqlarının mədəni həyatında çox mühüm bir hadisəni - nazirlər konfransını keçiririk. İnanıram ki, burada müzakirə olunan məsələlər müsəlman xalqlarının həyatında inkişafa doğru yeni pəncərə açacaq və qəbul ediləcək qərarlar ölkələrimiz arasında əməkdaşlığın daha da dərinləşməsinə öz töhfələrini verəcəkdir.

**Konfransın ən yüksək səviyyədə təşkil edilməsində göstərdiyi dəstəyə görə mən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkürümü bildirmək istərdim. Prezident İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı müraciətində səslənən fikirlər bir daha təsdiqləyir ki, Azərbaycan dövlətinin siyasətində İslam dünyası ilə əməkdaşlıq prioritet istiqamətlərdən biridir.**

Ölkəmizin İSESKO ilə əməkdaşlığının inkişafında hər iki tərəfin qarşılıqlı təşəbbüsləri mühüm rol oynayır. İSESKO-nun dəstəyi ilə "Bakı-İslam Mədəniyyətinin Paytaxtı - 2009" Mədəniyyət ili paytaxtımızda il boyunca bayram kimi qeyd olunmaqdadır. Bununla əlaqədar olaraq "Bakı - İslam Mədəniyyətinin Paytaxtı - 2009" Mədəniyyət ilinin proqramına 100-dən artıq milli və beynəlxalq miqyaslı tədbir daxil edilmişdir.

Tədbirlər sırasında cənab Prezident İlham Əliyev və cənab Əl-Tuveycrinin iştirakı ilə keçirilən Mədəniyyət ilinin açılış mərasimi, Beynəlxalq Muğam Festivalı, Azərbaycanda Mərakeş Krallığının, Qətər dövlətinin, İordaniyanın Mədəniyyət Günləri, "Şərq-Qərb" Beynəlxalq Kinofestivalı, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Kitabxana direktorlarının II Konfransı, İSESKO-ya üzv dövlətlərin, Şərq-Qərb Beynəlxalq Rəqs Festivalı, İslam Mətbəxi I Beynəlxalq Kulinariya Festivalı, I Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası və İslam Konfransı Təşkilatına üzv dövlətlərin Mədəniyyət Nazirilərinin VI Konfransı, Türkdilli dövlətlərin mədəniyyət nazirlərinin toplantısı və digərləri mühüm yer tutur. Bununla yanaşı, müxtəlif sahələrdə bir sıra regional və milli seminarları da qeyd etmək olar. Ümumilikdə bütün Azərbaycan xalqı bu bayram tədbirlərini öz həyatında hiss edir və islam dəyərlərinin xalqımızın mədəniyyətinin formalaşmasında oynadığı rolu yüksək qiymətləndirir.

Bildiyiniz kimi, 2008-ci ilin 2-3 dekabr tarixində Bakıda Azərbaycan Hökuməti və Avropa Şurasının birgə təşkilatçılığı ilə "Mədəniyyətlərarası dialoq: Avropa və onun qonşu regionlarında sülhün və davamlı inkişafın əsasıdır" mövzusunda Avropa və onun qonşu regionlarının mədəniyyət nazirlərinin konfransı keçirilmişdir. Konfransda Azərbaycanın təşəbbüsü ilə İSESKO-ya üzv olan 10-a yaxın dövlət və islam təşkilatları iştirak etmişdir. Konfransda müxtəlif sivilizasiyalar arasında dialoqun təşviqini nəzərdə tutan Bakı Prosesinin əsası qoyulmuşdur. Biz qərara almışdıq ki, bu ənənəni davam etdirərək konfransa bir sıra Avropa dövlət-

lərini də dəvət edək.

Mən çox şadam ki, burada həmçinin bir sıra Avropa dövlətlərinin nümayəndələri və xarici dövlətlərin Azərbaycandakı səfirlikləri təmsil olunurlar".

**Bu gün ölkəmizin öz inkişaf dövrünü yaşadığını və bu inkişafın bütün sahələrdə özünü göstərdiyini diqqətə çatdıran natiq dövlətimizin öz imkanlarından istifadə edərək mədəniyyət sahəsində islahatlar həyata keçirdiyini, bütün mədəniyyət müəssisələrində yenidənqurma və bərpa işlərinin aparıldığını, onların ən müasir texnologiyalarla təchiz edilməkdə olduğunu da konfrans iştirakçılarının diqqətinə çatdırdı: "Biz bu istiqamətdə həm Avropa dövlətlərinin, həm də İslam ölkələrinin təcrübələrini öyrənir və müvafiq formada onu tətbiq etməyə çalışırıq.**

Bununla yanaşı, biz müzakirələrimizdə İslam irsinin qorunması məsələləri üzərində də dayanmalıyıq. Bu irsin qorunması bizim tariximizə və bu günümüzə verdiyimiz dəyərdir. Biz bunu birlikdə etməliyik. Azərbaycan dövləti öz daxili siyasətində islam mədəniyyətinə aid bütün abidələrin, tarixi irs nümunələrinin qorunması və mühafizəsi istiqamətində ən yüksək səviyyədə tədbirlər həyata keçirir. Təəssüflər olsun ki, biz bu tədbirləri ölkəmizin bütün ərazisində həyata keçirə bilmirik. Çünki - sizə də məlum olduğu kimi, Azərbaycan torpaqlarının 20%-i Ermənistan tərəfindən işğal edilmiş və orada İslam mədəniyyətinə aid bütün muzeylər, məscidlər, abidələr dağıdılmışdır. Mən xüsusi ilə vurğulamaq istərdim ki, həmin mədəniyyət nümunələri tək Azərbaycan xalqının deyil, bütün İslam dünyasına, ümumilikdə isə bəşəriyyətə aiddir. Bu, bəşər mədəniyyətinə qarşı təcavüzdür. Biz bu kimi məsələlərə bu prizmadan yanaşmalı, birgə tədbirlər həyata keçirməliyik.

İslam mədəniyyəti bizim xalqlarımızın tarixi keçmişi, bu günü və gələcək həyatıdır. Bu həyatı quranlar və bu həyatı yaşayanlar özümüz olduğumuz üçün onun dəyərli olması məq-sədilə birgə çalışmalı və konkret tədbirlər həyata keçirməliyik. Bu istiqamətdə İslam dünyası üçün müştərək mədəniyyət strategiyası qarşılıqlı əməkdaşlığın nəzəri əsaslarını müəyyənləşdirir və mən həmin sənədi hazırlayan - başda cənab Əl-Tuveycri olmaqla, İSESKO katibliyinə təşəkkür etmək istərdim.

İslam milyonlarla insanın inandığı, etiqad etdiyi dindir. Din isə mədəniyyətdir. Çünki mədəniyyət bizim hər birimizin düşüncə tərzini, həyata baxışını, mənəvi prinsiplərimizin və ən əsası - daxili dünyamızın dəyərini müəyyənləşdirən məfhumdur. Bu baxımdan mədəni əlaqələr xalqların bir-birini yaxından tanımasına, hörmət etməsinə və bir-birini qəbul etməsinə əhəmiyyətli təsir göstərir. Mədəniyyət sahəsi yeganə sahədir ki, onun mənbəyi heç vaxt tükənmir, əksinə, daimi yenilən nəsillər onu zənginləşdirir və əməkdaşlıq üçün hər zaman əsaslar yaradır.

Qeyd etdiyim bu faktorları nəzərə alaraq, Azərbaycan dövləti bütün islam ölkələri ilə mədəniyyət sahəsində əməkdaşlıq etməkdə maraqlıdır və bizim İslam ölkələrinin əksəriyyəti ilə həm ikitərəfli, həm çoxtərəfli formada sıx və nümunəvi əməkdaşlığımız mövcuddur".

Nazir həmçinin mədəni turizm və mədəniyyətlərarası dialoq məsələlərinin müzakirəsinin, bununla bağlı səsləndiriləcək təklif və təşəbbüslərin ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq üçün yeni imkanlar açılmasına səbəb olacağına əminlik ifadə etdi. Bu baxımdan mədəni turizm xalqların bir-birini tanımasına, bir-birilərinin mədəniyyətlərini öyrənməsinə şərait yaratdığını diqqətə çatdırdı.

İSESKO-nun nümayəndəsi Abdel Moez Bouxari isə çıxışında Azərbaycanın İslam mədəniyyətinin tarixində özünəməxsus yeri olduğunu vurğuladı. Milli və müasir sivilizasiyaların qovuşuğunda yerləşən ölkəmizin İslam mədəniyyətinə əvəzsiz töhfələr verdiyini bildirdi. Natiq təhsil sahəsində əməkdaşlığa diqqətin artırılmasının vacibliyini vurğuladı: "Bakı konfransında mədəniyyət, mədəniyyətlərarası dialoq, mədəni turizm, incəsənət, mədəni irs və digər sahələrdə regional və beynəlxalq layihələrin həyata keçirilməsinə təşəbbüs göstərməli və bu sahələrdə olan problemlərimizin həlli istiqamətində konkret addımlar atmalıyıq".

**Avropa Şurasının Mədəniyyət və Mədəni İrs Direktorluğunun rəhbəri Robert Palmer isə müzakirələrdə irəli sürülən fikirlərin müxtəlif mədəniyyətlər arasında dialoqun təşviqinə öz töhfələrini verəcəyinə əmin olduğunu dedi: "Bunun üçün biz real işlər və konkret tədbirlər həyata keçirməliyik. Biz artıq "Dialoq Paytaxtı" ideyası üzərində düşünməliyik. Bakı şəhəri "Dialoq Paytaxtı" statusunu ilk olaraq öz üzərinə götürə bilər. Bu, böyük məsuliyyətdir, çünki bu statusun vacibliyini təsdiqləmək böyük məsuliyyət tələb edir. İnanıram ki, bu təklif iştirakçılar tərəfindən müsbət qiymətləndiriləcək. Azərbaycan dövləti bu təşəbbüsləri daha da inkişaf etdirərək 2011-ci ildə "Ümumdünya Mədənfyyətlərarası Dialoq Forumu" təşkil edəcək. Mən hər birinizi bu qlobal təşəbbüsə dəstək verməyə və təşkilində yaxından iştirak etməyə dəvət edirəm".**

**● Elmira HƏSƏNQIZI**